QARAQAN

# İkinci addım

“HƏQİQƏTİN BEŞ ADI“

qanun nəşriyyatı

**Qaraqan. İKİNCİ ADDIM. "HƏQİQƏTİN BEŞ ADI"**

Bakı, Qanun Nəşriyyatı, 2024, 336 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 06.11.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Korrektor: | Əyyar Tahir |
| Mətn dizaynı: | Günay Seyidli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-826-0

© Qaraqan, 2020; 2024
© Qanun Nəşriyyatı, 2020; 2024

# ÖN SÖZ



...bu şəklə diqqətlə baxın. Gördüyünüz sxemlər və rəngli xətlər sizə nə deyir? Siz bunu nəyə oxşadırsınız? İlk ağıla gələn hansısa bir cihazın sxemi və ya hansısa fiziki düstur olur çoxunda. Amma daha diqqətlə baxandan sonra şəklin sol aşağı və sağ yuxarı küncündə iki təyyarə işarəsi görə bilərsiniz. Bu işarələr təxmini hamıda elə təsəvvür yaradır ki, qırmızı, sarı, yaşıl xətlər və müxtəlif yazılar səmada təyyarələrin getdiyi yolun xəritəsidir və təyyarələr göydə kəsişməsin deyə onlar üçün cızılmış bir xəritədir. Siz təxmini düz tapdınız. Amma daha dəqiq desək bu yollar göyün üzündə yox, yerin altın-

da olan yollardır. Bu Tokio metrosunun xəritəsidir. Tokio metrosunda təxminən 180-ə yaxın stansiya var, eləcə də metro 9 bəzi yerlərdə 13 dəmir yolu xəttindən ibarətdir. Məsələn o xətlərdən biri Ginza xəttidir, onun özü də müxtəlif hissələr və stansiyalardan ibarətdir. Hələ stansiyalar bir qırağa, bu ayrı xətlərdə olan dəmir yollarının özlərinin eni də müxtəlifdir, beləcə bir xətdə olan qatarlar o biri dəmir yolları üzərində heç cürə hərəkət edə bilməz, çünki qatarların təkərlərinin ölçüsü dəmir yolunun ölçüsünə uyğun gəlməyəcək.




Əslində Tokio metrosu bizə çox qədimdən insanların axtardığı əbədi suallara cavab tapmaqda kömək edəcək. Biz kimik? Bura haradır? Və biz hara gedirik?

Mənim üçün yapon dili qalın bir meşə kimidir, mən onların dilində bəlkə bir söz belə bilmirəm, Tokio şəhəri haqda çox eşitsəm də əslində orada olmamışam və mərkəzində nə yerləşir, kənarlarında nə var – bu haqda heç bir məlumatım yoxdur. Yəni ki, Paris haqda ən azı hamımız Eyfel qülləsinin adını çəkə bilərik, Luvr muzeyini və Sena çayını misal üçün göstərə bilərik. Amma Tokio???... Allah bilir nə

var Tokioda... Dilləri çətin, şəhər qarmaqarışıq, hamı bir-birinə oxşayır, hələ bir gəl metroya en və getməli olduğun yeri tap.

Yaxşı, indi sizə bir sual vermək istəyirəm. Bir anlıq təsəvvür edin ki, siz Tokioda metronun içində yuxudan ayılırsınız. Üzərinizdə pasportunuz yoxdur. Bütün divarlardakı yazılar ancaq yapon dilindədir. Radio vasitəsi ilə qatarların elanlarını oxuyan qız yapon dilində danışır. Hətta ən məşhur yazılardan biri olan Coca-Cola belə yapon hərfləri ilə təsvir olunub. Təsəvvür edin ki, bu qarmaqarışıqlığın içində ayılıbsınız. Hara gedəcəyinizi bilmirsiniz. Milyonlarla sərnişin, yoldan keçənlər. Nə bir polis, nə bir bələdçi. Amma əlinizdə kiçik bir kağızda gedəcəyiniz ünvan yazılıb. Görəsən siz belə bir şəraitdə nə edərdiniz? Əlbəttə azca narahat olardınız. Amma bir saata, ya iki saata ondan-bundan güc bəla ilə, əl hərəkətlərinin köməyi ilə sizə verilmiş ünvanı göstərərək, sonda düzgün mərtəbəyə qalxıb, düzgün qatara minib düzgün stansiyada düşə bilərdiniz. Təbii ki, bu Bakı metrosu qədər asan olmasa da siz bunu bacara bilərdiniz. Dili bilmədən, tanımadan, yüz dəfə kobud cavab alaraq, iki dəfə səhv qatara minərək. Yenə də əgər əlinizdə gedəcəyiniz ünvan varsa siz yüz faiz oradan çıxa bilərdiniz. Pulsuz-parasız, pasportsuz və bələdçisiz, sizə sadə yapon vətəndaşları bir təhər kömək edərdilər.

Amma burada əsas məsələ var. **"Gedəcəyiniz ünvan"** – siz onu bilirsiniz, ona görə də oraya çata bilirsiniz. Yaxşı, bəs əgər eyni şərait olsa və siz hara gedəcəyinizi də bilmirsiniz. Kağızı itiribsiniz və ge-

dəcəyiniz stansiya haqda heç nə bilmirsiniz. Sizdə olan məlumat təkcə bu ünvan idi. Siz illərlə qatardan qatara tullanaraq, heç vaxt sizə lazım olan yerə çata bilməzsiniz. Belə ki, sizə nə lazımdır, hara lazımdır bilmirsiniz.

Bunu sizə deməkdə məqsədim odur ki, mənim yolçuluğumun səbəbini anlayasınız. Biz bilmədiyimiz bir dünyada doğuluruq. Bizim qarşımızda minlərlə qatar var. Amma hansı qatarın haraya apardığını da bilmirik, hətta bunu bilsək belə hara getmək istədiyimizi də anlamırıq.

Budur, bu şəkildə də bir xəritə təsvir olunub, amma bu xəritə həyat yolunun xəritəsidir, doğulduğunuz andan sizin qarşınızda yüzlərlə yol açılır və siz hər seçdiyiniz yol ilə həyatınızı 180 dərəcə dəyişirsiniz. Və əgər siz sonunda hara çatmaq istədiyinizi bilmirsinizsə sizin xəritə şəkildəki kimi görünür. Bütün yolların sonunda duman və bulud, anlaşılmazlıq. Çünki siz özünüz bu dumanı və buludu seçirsiniz. Gördüyünüz bu xəritə yapon metrosundan qat-qat mürəkkəb və dəfələrlə böyükdür. Və siz bir gün yuxudan ayılıb, daha dəqiq desək, doğulub, bu dünyada olduğunuzu görübsünüz. İndi isə minlərlə stansiyanın içindən birini seçmək lazımdır. Sonra ona doğru gedən yolu tapmaq.

## PROLOQ

*Əgər bir insan həyatın mənasını axtarır və onun dəyərlərini araşdırırsa, deməli, o xəstədir.*

***Ziqmund Freyd***

***(Psixoanalizin banisi, elmlər doktoru, professor)***

Bu kitab yazılandan on il əvvəl...

İlahiyyat fakültəsi məscidinin qarşısı cümə namazları vaxtı qarışqa yuvasına bənzəyirdi. Müxtəlif yaşda və müxtəlif səviyyədə olan dindarlar buraya gəlir, azca aşağıda yerləşən dəst-namaz otağında yuyunur və əzanın səsi eşidilən kimi türklərin tikdiyi məscidə doluşurdular. Mən dərsdən çıxıb tələsərək dəst-namaz alıb bu adamların arasından keçərək özümü içəriyə salırdım. Gələnlərin sayı o qədər idi ki, asfaltın üzərinə xalçalar salınır və içəri yerləşməyən camaat həyətdə namaz qılırdı. Bu bəzən soyuq, hətta qarlı günlərdə də olurdu. Məscidin həyətində "Jeep"lər, "Mersedes"lər və müxtəlif bahalı maşınlar dayanırdı. Eləcə də qonşuluqda yaşayan qaçqın binalarındakı ayağı yalın uşaqlar da bu varlı müsəlman əmilərlə çiyin-çiyinə məsciddə əyləşir və imamın xütbəsini dinləyirdilər. İmam türkiyəli, ağıllı bir kişi

idi. O əvvəlcə insanlara islamdan danışır, ağıllı və xeyirxah olmağı tövsiyə edir və hamını namaz qılmağa səsləyirdi. O üzünü qibləyə çevirib bismillah çəkən kimi biz hamımız ayağa qalxır və bir sıra ilə düzülürdük. Hamı namaza hazırlaşırdı.

Cümə namazı kişilərə fərz (Allahın əmri) idi. Və bu namazı qılmağın böyük savabı var idi. Biz hər cümə burada namaz qılarkən sanki bütün günahlardan yuyulur və yeni həftəyə tərtəmiz imanlı adamlar kimi daxil olurduq. Yalın ayaqlar və hər dəfə səcdəyə gedən alın təmiz xalçaya toxunur və bizə canlı olduğumuzu, bütün insanlarla bərabər və Allah qarşısında kiçik bir nöqtə olduğumuzu hiss etdirirdi. Düz yeddi il bir həftəni belə buraxmadan bu cümələrə gedirdim və namaz qılırdım. Mənim üçün bu həqiqətən xilas və Tanrıya qovuşma idi. Mən ürəkdən inanırdım ki, çiynimdəki mələklər bu namazların hesabını aparır və məni pis və yaxşı əməllərimə görə qiymətləndirirlər. Getdikcə məscidə və islama bağlanırdım. Kənarda gördüyüm insanlar çox yalançı və kobud olurdular, amma məsciddəki insanlar hamısı yaxşı adamlar idi. Onların üzü gülür və çox sadə və nurani bir təsir bağışlayırdılar. Onlar bizim başımızı sığallayır və bizə ancaq xoş sözlər deyirdilər. Hər bir yerin, universitetin, ya restoranın qapısında qaşqabaqlı gözətçilər sorğu-sual edirdi. Məscidin qapıları isə həmişə üzümüzə açıq idi. Dəfələrlə boş məsciddə gözümü günbəzə qaldırır, orada ərəb dilindəki yazılara baxır və yaradılış haqda düşünürdüm.

Əslində bu çox gözəl bir dövr idi. 19 yaşımda artıq bütün yaradılışın sirrini, ölümdən əvvəlki bü-

tün hadisələrin, ölümdən sonrakı bütün hadisələrin əvvəlini və sonunu bilirdim. Buradakı məqsədim və bütün bəlaların səbəbi, pis və yaxşı insanların mükafatları və cəzaları haqda hər şeyi bilirdim. Mənə dinozavrlar və arxeoloji qazıntılar maraqlı deyildi, mən dəqiq bilirdim ki, Allah Adəmi torpaqdan və Həvvanı onun qabırğasından yaradıb. Mənə ulduzlar, ay və günəş maraqlı deyildi, mən dəqiq bilirdim ki, onlar insanlara ilin günlərini saymaq və səyyahlara yolu göstərmək üçün 6 gün içində yaradılıb. Mən bilirdim ki, dünyada pis nəsə olursa, bu Allahın sınağı və ya cəzasıdır. Mən pis və ədalətsiz insanların digərlərinə etdikləri zülmə belə baxanda gülümsəyirdim, çünki onların cəhənnəmdə yanacağından əmin idim. Hər bir pis insan etdiyi ən kiçik pisliyə görə belə cəza alacaqdı.

Bilirsiniz, islam fundamental bir bilik bazasıdır. Və demək olar ki, həyatın ən dərin fəlsəfi suallarından ən adi günlük hadisələrə kimi hər bir mövzuya cavab verməyi bacaran bir dindir. Elə buna görə dindar müsəlmanların keçirdiyi rahatlıq hissi heç bir hisslə əvəz oluna bilməz. Bu doğrudan da böyük bir sevinc və qürurla dolu bir hissdir. İslam insanı belə təsvir edir.

"Allah var, o əbədidir, hər zaman olub və həmişə olacaq. Bundan əlavə, Allah hər şeyi bacarır, istədiyi hər bir şeyi edə bilər. Həm də Allah bu qədər gücü və qüvvəti olmağına baxmayaraq ən yaxşı, ən mərhəmətli varlıqdır. Hər kəsə və hər bir canlıya yaxşılıq istəyir və sonsuz yaxşılıqlar edir. Bir gün Allah qərara gəlir ki, yaratdığı varlıqların ən üstününü, özünə ən yaxın olanını yaratsın. Və beləliklə bütün dünyada milyardlarla

planet və qalaktikalar içində ən üstün varlıq olan insanı yaradır. Yüz minlərlə mələk insana baş əyir və Allahın həqiqətən ən üstün varlığı yaratdığını təsdiqləyir. Şeytan isə Allaha qarşı çıxır və buna görə qovulur. Allah ilk insanı cənnətə yerləşdirir və ona sonsuz nemətlər verir. Eləcə də onun üçün sevəcəyi qadını yaradır. Beləcə onlar cənnətdə rahat yaşayırlar. Arada kiçik bir anlaşılmazlıq olur – insanlar şeytana aldanır və Allahın qadağan etdiyi meyvəni yeyir. Buna görə cənnətdən qovulur və yerə göndərilir. Bu planet isə bizim sınaq otağımızdır. İnsanlar dünyaya gəlir, böyüyür çoxalır və yeni nəsillər doğur. Bütün səbəb isə qiyamət gününə kimi sınaqdan keçməkdir. Kim Allaha inanıb onun Quranda göndərdiklərinə əməl eləsə sonda yenidən cənnətə qayıdacaq. Kim Allahdan üz döndərsə içsə, çəksə, adam öldürsə, söyüş söysə – bir sözlə, pis insan olsa cəhənnəmə düşəcək". – Bu belə deyək, islamın gənc təxəyyül üçün sadələşdirilmiş bir görünüşüdür.

Qısacası sınaq nədən ibarətdir. İçki içmə, yalan danışma, başqasının xanımında gözün olmasın, adam öldürmə, təmiz ol və günün müəyyən vaxtlarında Allaha ibadət et. Bunun üçün 60-70 il vaxtın var. Təbii ki, sınaq dövrün darıxdırıcı keçməsin deyə, Allah dadlı meyvələr, şəlalələr, göy qurşağı, ailə sevinci, sevgi, elm və dəniz suları, bal, ətirli güllər və isti qum yaradıb. Bütün bunlar sadəcə sənə olan sevgisindən və mərhəmətindən gəlir. Eləcə də bu sınaq müddətində səni qoruyan üç gözəgörünməz mələk var (hafaza mələkləri). Bu mələklər səni xəstəlikdən, yırtıcılardan, təsadüfi qəzadan (məsələn, yolda ayağın ilişdi, yı-